**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin**

**2024-cü il üzrə Hesabatı**

12.02.2025

Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində;

- **8 sənəd layihəsi təsdiq edilmişdir;**

- *"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu;*
- *Erkən evliliklə bağlı "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu;*
- *"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu;*
- *"Məişət zorakılığından zərər çəkmiş şəxslərin dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin Qərarı və s.*

- Komitəyə müvafiq qurumlardan daxil olan **12 sənəd layihəsinə rəy və təklif** verilmişdir.

- Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2025-2030-cu illəri əhatə edən konseptual sənəd layihəsi;
- Fərdi məlumatlar haqqında yeni Qanun layihəsi;
- İcra Məcəlləsinin və onunla əlaqədar hazırlanmış normativ hüquqi akt layihələri;
- Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"nın 8.1.1. və 8.1.2-ci yarımbəndlərinin icrası ilə bağlı Dövlət Komitəsinin təkliflər; *(Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilmişdir);*
- Əmək Məcəlləsinə dəyişiklik edilməsi ilə bağlı Qanun layihəsi; *(Ailə kəndli təsərrüfatlarında və ailə müəssisələrində əmək münasibətlərinin elektron sənəd formasında tənzimlənməsi ilə bağlı rəy bildirilmişdir;*
- Cinsi qısnamanın tənzimlənməsi ilə bağlı "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar

Məcəlləsində və “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanun layihələri;

- Əcnəbi vətəndaşların nikah münasibətlərini tənzimləyən “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Qanun layihəsi;
- Mədəniyyətin İnkişafı Konsepsiyası.

# Hesabatlar

- 2024-2026-cı illər üzrə Azərbaycan Respublikasının **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kommunikasiya Strategiyası**nın Tədbirlər Planına dair Hesabat (AR Prezidentinin Administrasiyasına təqdim edilir);

- **“Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi: İdeologiyanın əsasları” sənədinə dair hesabat** (AR Prezidentinin Administrasiyasına təqdim edilir);

- “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na əsasən hər il Dövlət Komitəsi tərəfindən **“Uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə hesabatı”** (Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir);

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş **“Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası“nın 6.1.12-ci bəndinin icrası istiqamətində aidiyyəti orqanlar (qurumlar) tərəfindən 2024-cü il ərzində görülmüş işlər üzrə ümumiləşdirilmiş hesabat** (Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir).

**Dövlət Komitəsi tərəfindən icra edilən Azərbaycan Respublikası Prezidentinin Fərman, Sərəncam və digər göstərişləri ilə verilmiş tapşırıqlarla bağlı**

**2024-cü il ərzində 31 – Fərman, Dövlət Proqramı, Strategiya və Milli Fəaliyyət Planı icra edilmişdir.**

11- Fərman
9 - Dövlət Proqramı
6 - Strategiya
5 - Milli Fəaliyyət Planı

## Təhlil, hesabat və araşdırmalar

- ***Ötən il ərzində Komitə tərəfindən 4 müxtəlif mövzuda hesabat və təhlil hazırlanıb:***

  - “Korrupsiyanın gender bərabərliyinə təsiri” sorğusunun nəticələri üzrə hesabat;
  - “Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış: bullinq” mövzusunda analitik hesabat;
  - İqlim dəyişikliyinin ailənin sosial-iqtisadi vəziyyətinə (qadın və uşaqlara) təsiri üzrə analitik hesabat.
  - “Ailədə gender bərabərliyinə mane olan patriarxal yanaşmalar və ayrı-seçkilik xarakterli stereotiplər” mövzusunda təhlil

- “Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyası və 10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Günü çərçivəsində Dövlət Komitəsinin təşkilatçılığı ilə **“Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış: Bullinq”** mövzusunda dövlət qurumları və vətəndaş cəmiyyətinin dialoqu konfransı çərçivəsində **eyniadlı analitik hesabatın təqdimatı** baş tutub.

# Məlumatlar

Dövlət Komitəsi tərəfindən

**“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında”** Azərbaycan Respublikasının 10 oktyabr 2006-cı il tarixli Qanununun 20-ci maddəsinə əsasən Dövlət Komitəsinin **2023-cü il üzrə Məlumatı Milli Məclisə təqdim edilib.**

3 əsas istiqaməti əhatə edən Məlumat, “Gender bərabərliyinin təminatları haqqında” Qanunun 20-ci maddəsinə uyğun olaraq,

1. Gender bərabərliyinin təmin edilməsilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və dövlətin vəzifələri;

2. Gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatı;

3. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əldə edilmiş nəticələr, qarşıya qoyulan vəzifələr və tövsiyələri əhatə edib.

Deputatların müzakirələrindən sonra illik məlumat səsverməyə qoyularaq qəbul olunub.

**Qeyd: Məlumat**

**62 - dövlət qurumu,**

**77 - yerli icra hakimiyyəti orqanı,**

**50 - dövlət və özəl ali təhsil müəssisəsi, (40-ı dövlət, 10-u özəl olmaqla)**

**8 - televiziya kanalı,**

**6 - qəzet,**

**7 - kitabxanaya,**

**həmçinin Naxçıvan Muxtar Respublikasının bütün qurumlarına paylanılması üçün göndərilmişdir (58 ədəd)**

**“Yaşıl dünya naminə həmrəylik ili”** və **BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası (COP29)** çərçivəsində

Ümumilikdə **36 görüş, aksiya və konfrans**, **2 yüksəksəviyyəli tədbir** keçirilmişdir.

- Dövlət Komitəsinin təşkilatçılığı ilə “Yaşıl Dünya Naminə Həmrəylik İli” **çərçivəsində “Ekoloji tarazlığın və insan hüquqlarının təminatı sahəsində vətəndaş cəmiyyətinin rolunun artırılması” mövzusunda konfrans** keçirilmişdir.
- **“Regional İnkişaf” İctimai Birliyi ilə** əməkdaşlıq çərçivəsində Respublikanın bütün rayon və şəhərlərindən olan **120**-dən çox gənc ailənin iştirakı ilə **“Ekoloji düşüncə ailədən başlayır” şüarı ilə “Ailə Festivalı”** keçirilmişdir.
- **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə** Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunmuş **“Su və gender bərabərliyi”** konfransı
- **BMT-nin Uşaq Fondunun, COP29 Prezidentliyinin Gənclər İqlim Çempionu, Gənclər və İdman Nazirliyi və Dövlət Komitəsinin tərəfdaşlığı ilə “Uşaqlar, gənclər və iqlim fəaliyyəti” üzrə yüksəksəviyyəli dəyirmi masa,**
- İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İCESCO) təşkilatçılığı, Dövlət Komitəsinin tərəfdaşlığı ilə **“İqlim Dayanıqlılığı və Sülh Quruculuğunda Gənclərin Liderliyi”** mövzusunda yüksəksəviyyəli tədbir keçirilmiş,

  **İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İCESCO) və Dövlət Komitəsi arasında əməkdaşlığa dair niyyət protokolu imzalanmışdır.**
- BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) və Dövlət Komitəsinin təşkilatçılığı ilə **“Şəffaflıqda Gender” mövzusunda yüksəksəviyyəli tədbir,**

- Elm və Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində **"Ekologiya və uşaqlar"** mövzusuna həsr olunmuş **Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu** Azərbaycanın bütün bölgələrindən **300 uşağın** iştirakı ilə keçirilmişdir.

- Azərbaycan Könüllü Təşkilatları İttifaqı, Gənclər və İdman Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi və Gənclər Fondunun əməkdaşlığı ilə **200** nəfərdən çox könüllü gənclərin iştirakı ilə **"Yaşıl gələcəyə könül ver" adlı görüş** keçirilmişdir**.**

- **Uşaq və Ailələrə Dəstək Mərkəzləri** tərəfindən məktəblilər arasında ekoloji tərbiyənin formalaşdırılması məqsədilə **908 nəfərin** iştirakı ilə **29 maarifləndirici tədbir və ağacəkmə aksiyası** keçirilmişdir.

## Ailə məsələləri

**4 sosial layihə**

**6927 nəfərin iştirakı ilə**

**74 təlim, seminar və görüş keçirilmişdir.**

*Layihələrin adları:*

- *“Həyatının memarı sən özünsən”,*
- *“Çempion ailələr”*
- *“Şəxsi inkişaf və karyera planlaşdırılması”,*
- *“Ailəm”*

- “Ailə-dəyişməyən dəyərimiz” mövzusunda **100**-dən çox ailənin iştirakı ilə **Gənc Ailə Forumu** keçirilmişdir.

- 2020-ci ildən başlayaraq **“Ailəm könüllüləri” layihəsi** həyata keçirilir. Ötən il **60 nəfər** könüllü olmaqla, 4 il ərzində ümumilikdə **300-dən artıq gənc** bu proqramdan yararlanıb.

Ötən il könüllülər **100-dən çox yerli və beynəlxalq tədbirdə, aksiyalarda, o cümlədən Prezident və Parlament seçkilərində** iştirak ediblər.

## Qadın və gender məsələləri

- **<u>3 sosial layihə ,</u>**
- **<u>9689 nəfərin</u> iştirakı ilə**
- **<u>98 təlim</u>, seminar, görüş keçirilmişdir.**

*Layihələrin adları:*

- *“Güclü cəmiyyətin zərif simaları”,*
- *“Sən tək deyilsən”,*
- *“Gənc Qızların Təhsilinə Dəstək”*

- **8 mart Beynəlxalq Qadınlar Günü** ərəfəsində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təltif olunan, Azərbaycanın ictimai-siyasi həyatında fəal olan qadınların iştirakı ilə bayram tədbiri keçirilmişdir.
- Ümummilli Lider Heydər Əliyevin xatirəsinə və Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş **“Heydər Əliyev irsinin öyrənilməsi” mövzusunda** Naxçıvan Muxtar Respublikasında **<u>550</u>** nəfərin iştirakı ilə **Yeni Azərbaycan Partiyası veteranlarının gənclərlə görüşü** keçirilmişdir.
- Dövlət Komitəsi və “Üçüncü Bahar ”Yaşlılara Dəstək İctimai Birliyinin əməkdaşlığı ilə birgə həyata keçirilən **“Selektiv abortlarla mübarizə” Kampaniyası çərçivəsində "Güclü Zəriflər" adlı sosial təbliğat məqsədli teatr tamaşası** nümayiş olunub.

*Qeyd: Tamaşa dövrümüzün həssas problemlərindən olan cinsi ayrı-seçkilik, selektiv abortlarla mübarizə, qız uşaqlarının hüquqlarının pozulması, erkən nikah və qohum evliliklərinə qarşı çağırışı özündə ehtiva edir.*

- Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyinin və Təhsilin İnkişafı Fondunun əməkdaşlığı ilə həyata keçirilən **"Gənc Qızların Təhsilinə Dəstək"** layihəsi çərçivəsində 2024-2025-ci tədris ilində tələbə adını qazanan daha **50 nəfər** tələbə qız **"Hənifə Məlikova - Zərdabi adına təqaüd proqramı"na** cəlb olunmuşdur.

**Qeyd: Layihənin həyata keçirildiyi 4 il ərzində 58 rayon üzrə 144 tələbə qız, 27 fərqli ali təhsil müəssisəsinə qəbul olunub.**

- **2024-cü ildə ilk dəfə 2 nəfər Qarabağ Universitetinə qəbul olunub.**
- **Ağdam, Füzuli, Masallı, Zaqatala və Bərdə** rayonları üzrə təmsilçilik daha yüksək olub.
- Gənc qızların maraq göstərdiyi **qeyri-ənənəvi ixtisaslar** arasında **kimya mühəndisliyi, informasiya texnologiyaları, təbiət elmləri və mühəndislik, informasiya təhlükəsizliyi, geologiya və geofizika** üstünlük təşkil edib.

Bu layihə daxilində **"Abituriyent qızların təhsilinə dəstək"** komponenti həyata keçirilmişdir. **Dövlət Komitəsi ilə "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti arasında anlaşma memorandumu** imzalanaraq, **"Arzumuz var" sloqanı** ilə yeni təqaüd proqramının ilk mərhələsində Bakı şəhəri və regionlardan olan **15 nəfər abituriyentin** ali məktəblərə daxil olmaq üçün hazırlıq kurslarına cəlb edilməsinə dəstək göstərilməkdədir.

- **Dövlət Komitəsinin Azərbaycan Banklar Assosiasiyası ilə birgə** həyata keçirdiyi **"Sən tək deyilsən"** layihəsi çərçivəsində **"Gələcəyə əmin addımlarla" şəhid xanımlarının təhsilinə dəstək proqramı** daxilində 2024-cü ildə ali məktəblərə qəbul olmuş Vətən müharibəsi şəhidlərinin həyat yoldaşları ilə görüş keçirilmişdir. Görüşdə tələbə adı qazanan şəhid xanımlarına sertifikat və hədiyyələr təqdim edilmişdir.

Qeyd: ***2024-cü ildə 9 olmaqla, ümumilikdə layihə çərçivəsində 25 şəhid xanımı dəstək proqramından yararlanıb.***

## Uşaq məsələləri

- **Ötən il ərzində**
  **6 – sosial layihə**
  **15588 - nəfərin iştirakı ilə**
  **367 - təlim, seminar və görüş keçirilib.**

*Layihələrin adları:*

- *Uşaqdan-uşağa*
- *Yalnız Bir Dünya*
- *“Mənim hüquqlarım”adlı təşviqat avtobusu;*
- *Gələcəyini Qur*
- *Diplomatın Bir Günü*
- *Uşaqlar arasında “İti Zəka” hakatonu*

- 2024-cü il ərzində monitorinq qrupu tərəfindən **ümumilikdə 15 uşaq müəssisəsində monitorinq səfəri** təşkil edilmiş və nəticələri barədə məlumatlar Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.
  **14** uşaq müəssisəsinin fəaliyyəti qənaətbəxş, **1** müəssisənin (*Quba xüsusi peşə məktəbi*) fəaliyyəti isə qeyri-qənaətbəxş hesab edilmişdir.

- 1 İyun- Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Azərbaycan Uşaqlarının İnkişaf Platforması" İctimai Birliyi və Uşaq Səfirlər Məclisi ilə birgə, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə **“Bütöv Azərbaycan” devizi** altında **“Böyük qayıdış: uşaqlar üçün yeni dövrün başlanğıcı”** adlı konfrans keçirilmişdir.

- Dövlət Komitəsi tərəfindən Türkiyə Spastik Uşaqlar Vəqfindən dəvət olunmuş təlimçilərin iştirakı ilə 8 yaşa qədər uşaqlarla işləyən **90 nəfər mütəxəssis üçün 3 istiqamət üzrə** müxtəlif mövzularda **təlimlər və “Erkən uşaqlıq dövrünün inkişafı – koordinasiyalı fəaliyyət” mövzusunda yekun konfrans keçirilmişdir.**
- Mingəçevir şəhəri və ətraf rayonların şagirdləri arasında 8 Noyabr-Zəfər Gününə həsr edilmiş **“Zəfər yolu”** adlı intellektual yarış keçirilmişdir.

# Uşaq və Ailələrə Dəstək Mərkəzləri

- 2024-cü il ərzində **Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin xidmətlərindən bəhrələnənlərin sayı**

- ***25354 nəfər***

**Mərkəzlərə:**

- **2455 müraciət daxil olmuş,**
- **onlardan 965-i təmin** edilmişdir.

***Qeyd:***

***Ötən il ərzində 890 ailəyə səfər edilib.***

***2024-cü il ərzində* 31 erkən nikah faktı *ilə bağlı iş aparılıb***

**18 - erkən nikah faktının qarşısı alınıb.**

## “Açıq qapı günü”

- 11 Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən **2024-cü il ərzində 10 “Açıq qapı” günü** keçirilib,

  - Müraciət edən **960 vətəndaşa** psixoloji, hüquqi və sosial problemlərin həlli üzrə dəstək göstərilmişdir.

***Müraciətlər:***

***52%-i sosial məsələlər (501),***

***33%-i uşaq məsələləri (314),***

***9% -i hüquqi yardım (78)***

***8% -i psixoloji konsultasiya (67)***

## Vətəndaş müraciəti

- Ötən il Komitəyə **3628 vətəndaş** müracəti daxil olmuşdur.

***Komitədə vətəndaş qəbulunda 132% artım müşahidə edilmişdir.***

***Qeyd:* *Ötən il ərzində qəbul zamanı anonim formada aparılan vətəndaş məmnuniyyəti sorğusunun nəticələrinə əsasən 90% (819 nəfər) vətəndaş Komitədə keçirilən qəbuldan razı qalmışdır.***

***10% vətəndaş (91 nəfər) isə təhsil və ya sağlamlıq imkanlarının məhdud olması səbəbindən sorğuda iştirak edə bilməmişdir.***

*Regional qəbullarda müraciətlərin sayı 34% azalıb,*

*Ümumi müraciət sayında isə 4% azalma müşahidə edilir.*

## Dövlət Komitəsi sədrinin regional qəbulları

- **<u>12 region</u> üzrə qəbul keçirilib.**

*Şabran, Füzuli, Goranboy, Qazax, Qobustan, Oğuz, Siyəzən, Ağsu, Yardımlı, Hacıqabul, Abşeron*, *Samux*

**<u>Regional qəbullarda 99 müraciətə baxılmışdır.</u>**

- **Vətəndaş müraciətlərində üstünlük təşkil edən mövzular:**
  - *məhkəmə qərarlarının icrası (**614**),*
  - *məişət zorakılığı (**594**),*
  - *işlə təmin olunma (211),*
  - *müxtəlif yönümlü sosial müavinətlərin verilməsi (**173**),*
  - *müayinə və müalicə olunmaqda köməklik (**158**)*

- **Ötən il ərzində məişət zorakılığı ilə bağlı Komitəyə <u>594 müraciət</u> daxil olmuşdur.**

**2020-ci illə müqayisədə son 5 il ərzində məişət zorakılığı ilə bağlı daxil olan müraciət sayı <u>3,3 dəfə</u> artmışdır.**

## 860- Gender əsaslı zorakılıqla bağlı Dəstək xətti

**330 müraciət daxil olmuşdur.**

*Qeyd: Dəstək xəttinə edilən müraciətlərin sayı 2023-cü illə müqayisədə 9,1% artmışdır.*

***Komitənin müraciəti əsasında verilən mühafizə orderləri***

- ***2022- 46***
- ***2023- 83***
- ***2024 - 108***

- ***2023-cü illə müqayisədə Komitəyə daxil olan müraciətlər əsasında verilən qısamüddətli mühafizə orderlərinin sayı 30% artmışdır.***

## “Qadın Dəstək Xətti”nə (116 111)

## daxil olan müraciətlərin təhlili

### Ümumi müraciətlərin sayı- <u>1623</u>

Məişət zorakılığı – 304

Boşanma prosesindəki problemlər – 472

Sosial-maddi rifahın aşağı olması – 267

Səhiyyə hüququnun təmin edilməsi – 42

Hüquqi yardım – 495

Sığınacaqla təmin olunma - 43

### “Uşaq Qaynar Xətti”nə daxil olan müraciətlər

### Ümumi müraciətlərin sayı – <u>3635</u>

Məişət zorakılığı – 318

## Kütləvi İnformasiya Vasitələri

- **Ötən il Kütləvi İnformasiya Vasitələrindən –**
- **<u>198 müraciət</u>**

**televiziya – 112,**

**sayt-69,**

**radio-17**

*Mövzularda üstünlük təşkil edib:*

- *Erkən nikah, təhsildən yayınma – 41*
- *Nikah/boşanma – 35*
- *Qohum evliliyi – 20*
- *Selektiv abortlar – 14*
- *Məişət zorakılığı – 10*
- *Digər mövzular - 78*

- **Qəbələ rayonunda tələbə jurnalistlər, İsmayıllıda isə jurnalistlər və sosial media blogerləri üçün "Ailə, qadın və uşaq məsələləri mediada"** mövzusu üzrə Təlim Proqramları təşkil olunmuşdur.

## Çap məhsulları və roliklər

- Valideynlər üçün övladları ilə münasibətə dair tövsiyələr” (1600 ədəd),
- “Gənc ailələrə tövsiyələr” (1000 ədəd) və aktual mövzularla bağlı şüarların yazıldığı eko qolbaqlar (5000 ədəd) çap edilərək paylanılmışdır.

**Komitənin sifarişi ilə 8 sosial-çarx hazırlanmışdır.**

-"Öncə düşün",
-"Çinartək sığındığımız böyük ailəmiz",
-"Narkomaniya yox edir",
-“Uşaqlar arasında cins seçimi ilə mübarizə”,
-“Ekoloji düşüncə ailədən başlayır”
-“Genofondumuzu qoruyaq”,
-Biz Azərbaycan uşaqlarıyıq”,
-“Peyvənd həyat qurtarır”

- **Komitənin Audiovizual Şura ilə əməkdaşlığı çərçivəsində sosial-çarxların ümumölkə yerüstü və peyk yayımında olan 16 televiziya kanalında yayımı təmin edilmişdir.**

## Komitə yanında İctimai şura

Ötən il Komitə yanında İctimai şuranın üzvləri dövlət qurumları və beynəlxalq təşkilatlarla bir sıra görüşlər keçirmişdir.

***Qeyd:*** *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi, Medianın İnkişafı Agentliyi, TƏBİB, Baş Prokurorluğun Cinayət Təqibindən kənar İcraatlar İdarəsində, həmçinin UNİCEF-in Uşaq müdafiəsi proqramının rəhbəri ilə görüşlər keçirilib.*

Görüşlərdə qadın və uşaq hüquqları, qohum nikahları, uşaq əməyinin istismarı, məişət zorakılığı və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Qeyd:** 7 fevral 2025-ci il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında **İctimai Şuranın yeni tərkibinin formalaşdırılması üçün** namizədlərin qəbulu elan edilib.

Komitə yanında İctimai Şuraya üzv seçilmək üçün namizədlər öz sənədlərini **11 mart 2025-ci il tarixinədək** Komitənin seçki komissiyasına təqdim edə bilər.

## Qeyri-hökumət təşkilatları ilə iş:

**2024-cü il ərzində qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində 16 vətəndaş cəmiyyəti təşkilatı ilə 44 təlim, tədbir və görüş keçirilib.** Ümumilikdə **2700-dən artıq iştirakçı olub.**

- Həmçinin Dövlət Komitəsi, Mərkəzi Seçki Komissiyası və "Bərabər İnkişaf Naminə" Koalisiyanın birgə əməkdaşlığı çərçivəsində **növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri, Milli Məclisə növbədənkənar seçkilər və bələdiyyə seçkiləri** ərəfəsində qadınların seçkilərdə fəallığının yüksəldilməsi məqsədilə Bakı və regionları əhatə etməklə ümumilikdə **8800 qadının iştirakı ilə 86 görüş** keçirilmişdir.

**Dövlət Komitəsi sədrinin beynəlxalq əməkdaşlıq çərçivəsində görüşləri**

- **“Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi** və **Tacikistan Respublikasının Hökuməti yanında Qadın və Ailə məsələləri üzrə Komitəsi arasında gender bərabərliyi sahəsində əməkdaşlıq haqqında Memorandum” layihəsi** qarşı tərəflə razılaşdırılmış və 23 may 2024-cü il tarixində imzalanmışdır.

➢ **İl ərzində beynəlxalq əməkdaşlıq çərçivəsində ümumilikdə 11 görüş keçirilib.**

- Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Saca Faruq Abdullah;
- Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) rezident nümayəndəsi Alessandra Rokkasalva;
- İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin (Mormon kilsəsi) yüksək rütbəli nümayəndəsi Cek Gerard və Stirlinq Fondunun prezidenti Mayls Hansen;
- Qətər Dövlətinin Milli İnsan Hüquqları Komitəsinin sədri Məryəm bint Abdullah Əl-Attiya;
- Uqandanın gender, əmək və sosial inkişaf naziri Betti Amongi Ongom;
- ASEAN Parlamentlərarası Assambleyasının (AİPA) Baş katibi Siti Rozaimeriyanti Dato Haji Abdul Rahman;
- "BMT-Qadınlar" (UN Women) təşkilatının Avropa və Mərkəzi Asiya ölkələri üzrə regional direktoru Belen Sanz Luque;
- BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycan üzrə ölkə direktoru Məryəm Xan;
- İslam Ölkələri Statistika, İqtisadi və Sosial Araşdırmalar və Tədris Mərkəzinin (SESRİC) baş direktoru Zehra Zümrüt Selçuk;
- İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Tomas Ştəli;
- Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Viktoriya Romero.

- **Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Mədəniyyətlərarası dialoqlarda qadın hüquqlarının təşviqi: Qlobal proqresə doğru" adlı sessiya** təşkil olunmuşdur. Sözügedən sessiyada Dövlət Komitəsinin dəvəti ilə Uqanda, Türkiyə və İngiltərə dövlətlərinin həmkar qurumlarının rəhbərlərinin iştirakı təmin edilmişdir

- **Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı"** elan olunması ili çərçivəsində Şuşada **"İslam dünyasında qadınlar: ənənələr və çağırışlar" mövzularında konfrans** keçirilmişdir.

- **Türkiyə Respublikasının İstanbul şəhərində** keçirilən **"Türk Dövlətləri Təşkilatının (TDT) sosial siyasətdən məsul nazir və digər qurum rəhbərlərinin "Beynəlxalq Ailə Günü"nə həsr olunmuş birinci iclası"nda** Dövlət Komitəsinin nümayəndə heyəti iştirak edib. 2025-ci ildə təşkil olunacaq iclasın Azərbaycan Respublikasında keçirilməsi qərara alınmışdır.

- Dövlət Komitəsinin nümayəndə heyəti **Mərakeş Krallığının paytaxtı Rabat şəhərində** keçirilən **"Qayğı iqtisadiyyatı və sosial müdafiə: Qadınların səlahiyyətləndirilməsi, iş imkanları və rifahının təmin edilməsinin əsasları" mövzusunda I Beynəlxalq Konfransda** ölkəmizi təmsil edib. Həmçinin səfər çərçivəsində bir sıra görüşlər də keçirilmişdir.

- **Çinin Şandon əyalətinin Çindao şəhərində** keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) **"Rəqəmsallaşma vasitəsilə qadınların iqtisadi hüquqları və imkanlarının artırılması"** mövzusunda Qadınlar Forumunda ***"Azərbaycanın 4-cü Könüllü Milli Hesabatına dair maraqlı tərəflərlə məsləhətləşmələr və 5-ci DİM üzrə irəliləyiş" mövzusunda 4-cü Dayanıqlı İnkişaf Məqsədləri (DİM) dialoqunda*** *çıxışlar dinlənilmişdir.*

- **İsveçrənin Cenevrə şəhərində BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Gücləndirilməsi üzrə Agentliyinin (UN Women) birgə təşkilatçılığı** ilə keçirilən **"Pekin+30" Regional Baxış Görüşü**ndə Komitənin nümayəndə heyəti iştirak etmişdir.

Dövlət Komitəsi və Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə konfrans çərçivəsində **“Hökumətin rəqəmsal transformasiyası vasitəsilə kənd qadınlarının iqtisadi səlahiyyətlərinin artırılması” adlı yan tədbir** keçirilmişdir. Tədbir çərçivəsində fermer qadınlar və qadın kooperativlərinin məhsulları sərgilənmişdir.

- Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti **BMT-nin Cenevrədəki ofisinin Baş direktoru Tatyana Valovaya və**
- **BMT Baş katibinin müavini və BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molcean** ilə görüşlər keçirib,
- **Cenevrə ofisində yerləşən “Azərbaycan” otağı**nda yaradılan şəraitlə tanışlıq olub.

Dövlət Komitəsinin nümayəndələri bir sıra **beynəlxalq konfrans və iclaslarda** iştirak ediblər.

- SPECA-nın Gender və DİM üzrə İşçi Qrupunun illik onlayn iclasında və BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi, Sosial Komissiyası (ESCAP), BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE) və Tacikistan Hökuməti tərəfindən **“SPECA Regionunda Yaşıl İnkişaf” mövzusunda Düşənbə şəhərində keçirilən İqtisadi Forumda** (Sədaqət Qəhrəmanova)

- Özbəkistan Respublikasının Səmərqənd şəhərində Asiya Qadınlar Forumunda, Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində “Dayanıqlı inkişaf naminə su” Beynəlxalq Fəaliyyət Onilliyi üzrə Üçüncü Yüksək Səviyyəli Konfrans çərçivəsində keçirilən **“Qadınlar və Su” Beynəlxalq Forumunda;** (Sədaqət Qəhrəmanova)

- Heydər Əliyev Fondu və Milli Məclisin nümayəndələrinin iştirakı ilə **Mərakeş Krallığının Rabat şəhərində Uşaq Hüquqları üzrə Milli Observatoriyasının (ONDE) vitse-prezidenti Qizlan Benjelun ilə görüş** (Aynur Sofiyeva)

- **Tirana şəhərində keçirilən** BMT-nin Qadınlar üzrə Agentliyinin Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisi Albaniya Hökuməti ilə **"Gender Bərabərliyi və qadınların səlahiyyətlərinin gücləndirilməsinin təkmilləşdirilməsi üçün səmərəli institusional mexanizmlər: Pekindən sonra gələcək 30 ilin qrafiki" adlı konfransda** və **Lanzarota Konvensiyası Tərəflər Komitəsinin 43-cü iclasında** (Ceyran Rəhmətullayeva) iştirak və çıxışlar edilib.

## Komitənin internet resursları

Ötən il **Dövlət Komitəsinin veb-səhifəsi yeni - www.family.gov.az domeni və müasir dizaynla istifadəyə verildi.**

Saytda hazırlanmış çap materialları, maarifləndirmə vəsaitləri, həyata keçirilən layihə və tədbirlərlə bağlı elan, xəbər və mətbuat açıqlamaları, infoqrafik materiallar yerləşdirilib.

Yenilənmiş saytda özündə faydalı ekspert məsləhətlərini cəmləyən **E-jurnal** da fəaliyyət göstərir.

Daha bir yenilik ondan ibarətdir ki, saytın mobil versiyasında **(012) 860 Gender-əsaslı zorakılıqla bağlı Dəstək Xəttinə birbaşa zəng etmək mümkündür.**

- **cac.info.az saytı:**

Uşaq Səfirlər Məclisinin saytı 24 iyul 2020-ci il tarixdə Komitənin dəstəyi ilə fəaliyyətə başlamışdır.

**Məqsəd:** Uşaq Səfirlər Məclisinin fəaliyyətinin ictimailəşdirilməsi və uşaq hüquqları sahəsində maarifləndirilmə işinin əhatə dairəsinin genişləndirilməsi.

- **eudi.az portalı:** 2023-cü ilin iyul ayından etibarən Dövlət Komitəsi, “Regional İnkişaf” İctimai Birliyi və UNICEF-in Azərbaycandakı nümayəndəliyinin birgə tərəfdaşlığı ilə www.eudi.az portalı və sosial media səhifələrinin fəaliyyəti həyata keçirilir.

**Məqsəd:** Portal vasitəsi ilə cəmiyyət üzvlərinə və valideynlərə erkən uşaqlıq dövründə inkişaf məsələləri ilə bağlı faydalı məlumatlar çatdırmaq.

- **“Gender Azərbaycan” portalı.** Portal 2022-ci ildə Dövlət Komitəsinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə əməkdaşlığı çərçivəsində yaradılmışdır.

**Məqsəd:** Ölkədə gender bərabərliyi sahəsində vəziyyətlə bağlı məlumatların, yeniliklərin və xəbərlərin paylaşılması, genderə məsul şəxslər arasında koordinasiyanı və operativliyi gücləndirmək.

## Sosial şəbəkə hesabları

**2024-cü il ərzində Komitənin sosial şəbəkə hesablarında**

**364 məlumatlandırıcı,**

**60 maarifləndirici**

**40 reaksiya tipli paylaşım edilmiş,**

**25 canlı bağlantı keçirilmişdir.**

- Ötən il **"Facebook"** üzrə izləyicilərin sayı **23606-ya** çatmış, məmnunluq göstəricisi 27%-ə, səhifənin effektivlik meyarı 29.9%-ə yüksəlmişdir. 464 paylaşımın yayılma göstəricisi isə 288666-ya çatmışdır.

- "**İnstagram"da** izləyici sayı **6735-ə** yüksəlib, məmnunluq göstəricisi 26%-ə, səhifənin effektivlik meyarı 9.7%-ə yüksəlmişdir. **300 paylaşımın** yayılma göstəricisi isə 766954-ə çatmışdır.

- **"X"** (Twitter) platformasında izləyici sayı 3553 nəfərə çatmışdır. 246 paylaşımın görülmə sayı 17300, səhifənin effektivlik meyarı 8%, təqdir göstəricisi 9.9% olmuşdur.

- **"YouTube"** kanalında il ərzində **60 video** paylaşılmış, baxışların sayı 9776-ya yüksəlmişdir. Kanalın effektivlik meyarı 91,7%, məmnunluq göstəricisi isə 92.7% təşkil etmişdir.